

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 1 may 2021-ci il №33 (2541) https://mod.gov.az Qiyməti 30 qəpik


# "Vətən müharibəsi qəhrəmanlarının döyüş yolu örnəkdir"



*Həyatının gənc çağını Vətənə xidmətə həsr edən əsgər və zabitlərimizlə görüşməkdən, söhbətləşməkdən fərəhlənirəm. Qürur hissi keçirirəm ki, bu gün ürəyi Vətən eşqi ilə döyünən Azərbaycan əsgəri torpaqlarımızın keşiyində ayıq-sayıq dayanır, övladlıq borcunu layiqincə yerinə yetirir. Onlarla həmsöhbət olduqca bir daha əmin oluram ki, hərbi xidmətə yollanan hər bir gəncdə vətənpərvərlik hissi yüksəkdir. Məhz bu hisslə onlar istənilən tapşırığın öhdəsindən layiqincə gəlmək əzmindədirlər. Ötən ilin sentyabrın 27-dən başlayan və ordumuzun şanlı zəfəri ilə başa çatan 44 günlük Vətən müharibəsi bunun bariz nümunəsidir. Döyüşlər zamanı Azərbaycan Ordusu üzərinə düşən şərəfli missiyanı uğurla yerinə yetirərək, xalqa qələbə sevinci bəxş etdi. Hərbçilərimizin şücaəti və qəhrəmanlığı sayəsində əzəli torpaqlarımız gerçək sahibinə qaytarıldı. Onların haqq savaşında göstərdiyi vətənpərvərlik nümunələri xalqımızın yaddaşından heç vaxt silinməyəcək.*

Bu düşüncələrin ağuşunda yolumuz yenə də doğma yurdumuzun ucqar zirvələrində qartaltək qərar tutan cəsur Azərbaycan əsgəri ilə görüşədir. Yolboyu al-əlvan rəngə boyanan lalələr ruhumuza sığal çəkir. Vətən təbiətinin gözəlliyini seyr edə-edə döyüş mövqeyinə çatırıq. Çətin dağlıq ərazidə əsgərlərimiz üçün yaradılan şərait diqqətimizdən yayınmır. Yeni tikilən əsgər yataqxanası bütün növ lazımi avadanlıqlarla təchiz edilib. Yaradılan şərait onların nümunəvi xidmət etmələrinə müsbət təsir göstərir.

İlk həmsöhbətim müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Rövşən Hüseynovdur. O, Vətənin müdafiəsində dayandığı üçün qürur duyduğunu bildirdi. "Torpaqlarımız işğalda olduğu müddətdə müddətli hərbi xidmətimi düşmənlə təmas xəttində yerinə yetirmişəm. Bu səbəbdən sərhədyanı bölgənin özəlliklərinə bələdəm. Tabeliyimdə xidmət edən hər bir əsgər də burada xidmətin məsuliyyətini dərk edir, eləcə də hər biri vətənpərvərliyi ilə seçilir, dövlətinə, xalqına sədaqətlə xidmət edir."

Rövşən Hüseynov çətin təbii şəraitdə döyüş növbətçiliyini həyata keçirməyin son dərəcə məsuliyyətli olduğunu vurğuladı. "Bölməmizdə xidmət edən əsgərlər məsuliyyətli, nizam-intizamlı, vətənpərvər və el-obasına bağlıdırlar. Hər biri öz məsuliyyətini yaxşı dərk edir və bilir ki, bu gün torpaqlarımızın müdafiəsi kimi müqəddəs bir vəzifə onlara həvalə edilib. Onlar da öz növbəsində verilən tapşırığın öhdəsindən bacarıqla gəlməyə çalışırlar."

(Ardı 3-cü səhifədə)



Heydər Əliyev adına AAHM-in kursantları Hərbi Qənimətlər Parkında oldular

3-cü səhifədə



"İctimai-siyasi hazırlıq dərslərinin önəmi böyükdür"

5-ci səhifədə



"İşimizə böyük sevgi ilə yanaşırıq"

7-ci səhifədə



Əsgərlərimizin sosial-məişət şəraiti yüksəkdir

8-ci səhifədə

# Azərbaycanın Müdafiə naziri Türkiyə müdafiə sənayesini təmsil edən nümayəndə heyəti ilə görüşüb




***Aprelin 30-da Müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikası Müdafiə Sənayesi Komitəsinin sədri cənab İsmail Demirin rəhbərlik etdiyi geniş tərkibli nümayəndə heyəti ilə görüşüb.***

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Türkiyə Müdafiə Sənayesi Komitəsi, "STM", "ROKETSAN", "HAVELSAN" şirkətlərinin və "ASELSAN-Bakı" ofisinin rəhbər heyətlərini salamlayan Müdafiə naziri ölkələrimiz arasında ikitərəfli hərbi və hərbi-texniki əməkdaşlığın yüksələn xətlə inkişaf etdiyini və bu əlaqələrin daha da genişlənməsində dövlət başçılarının dostluq və qardaşlıq münasibətlərinin böyük rol oynadığını qeyd edib.

Görüşdə Azərbaycan-Türkiyə ikitərəfli hərbi-texniki əməkdaşlığının aktual məsələləri müzakirə edilərək müasir döyüş əməliyyatlarının aparılmasının yeni üsul və metodları, xüsusilə də Vətən müharibəsində əldə edilən döyüş təcrübəsi nəzərə alınmaqla iki ölkə arasında yeni birgə layihələrin həyata keçirilməsi yolları müəyyən edilib. Əminliklə bildirilib ki, əsas diqqət qoşunlarımızın texniki təchizatının daha da gücləndirilməsinə yönəldiləcək.

Azərbaycan Ordusunun dünyanın ən müasir silah və hərbi texnikası, o cümlədən qabaqcıl informasiya texnologiyaları ilə təchiz edilmiş, geniş rabitə sistemlərinə malik peşəkar ordu kimi inkişaf etdirilməsi qoşunlarımızın gizli, operativ idarəolunmasını, onların manevr imkanlarının, ümumilikdə isə döyüş qabiliyyətinin artırılmasını təmin edəcək.

## Xüsusi Təyinatlı Qüvvələrin yaradılmasından 22 il ötür

Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin yaradılmasından 22 il ötür.

AZƏRTAC xəbər verir ki, Xüsusi Təyinatlı Qüvvələr 1999-cu il aprelin 30-da yaradılıb. Qüvvələrin formalaşmasında Birinci Qarabağ müharibəsi iştirakçısı olmuş zabit və gizirlər iştirak ediblər.

Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin (XTQ) formalaşmasında Türkiyə Silahlı Qüvvələrinin Xüsusi Təyinatlı Qüvvələri müstəsna rol oynayıb. Bundan başqa, Azərbaycan xüsusi təyinatlıları müxtəlif ölkələrin təlim mərkəzlərində keçirilən kurslarda iştirak edib və dəfələrlə ABŞ, Türkiyə və Pakistanda keçirilən yarışlarda yüksək nailiyyətlər qazanıblar.

2016-cı ilin aprelində baş vermiş döyüşlərdə Xüsusi Təyinatlı Qüvvələrin bölmələri iştirak ediblər. Döyüşlər zamanı düşmənin çox sayda canlı qüvvəsi və hərbi texnikası məhv edilib.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində də Xüsusi Təyinatlı Qüvvələr böyük şücaət göstəriblər. Torpaqlarımızın düşmən tapdağından azad edilməsində XTQ-nin misilsiz xidmətləri olub. Onların qayalara dırmaşaraq Şuşa şəhərini işğaldan azad etməsi dünya hərb tarixinə düşüb.

Azərbaycan Xüsusi Təyinatlı Qüvvələri dünya müdafiə sənayesinin aparıcı şirkətlərinin istehsalı olan müasir silahlar, döyüş vasitələri və texnikalara malikdir.

Qeyd edək ki, Xüsusi Təyinatlı Qüvvələrin komandanı general-leytenant, "Vətən Müharibəsi Qəhrəmanı" Hikmət Mirzəyevdir.

## Ötən illərdə hərbi səbəblərlə əlaqədar təyin edilmiş əlillik müddəti bitən daha bir qrup şəxsin əyani müayinəsi aparılıb

Ötən illərdə hərbi səbəblərlə əlaqədar təyin edilmiş əlillik müddəti bitən və təkrar əlillik təyinatı aparılması üçün barələrində e-sistemə göndəriş daxil edilmiş, habelə əlillik sənədlərində ziddiyyət aşkarlanan daha 27 nəfərin komissiya tərəfindən əlilliyinin əyani qiymətləndirilməsi aparılıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, onlardan 15-nin xəstəlik diaqnozlarının əlilliyə əsas vermədiyi, həmin diaqnozların onların sağlamlıq vəziyyətlərinə uyğun olmadığı müəyyən edilib. Həmin şəxslərə təkrar əlillik təyin olunmasından imtina qərarı verilib.

Komissiyanın üzvləri Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agentliyi, Müdafiə Nazirliyinin və digər müvafiq qurumların hərbi həkim ekspert komissiyaları, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi nümayəndələrindən ibarətdir. Əyani müayinələrin hər birinin videoçəkilişləri aparılır və bu zaman qeyri-hökumət təşkilatları nümayəndələrinin də iştirakı təmin edilir.

Budəfəki əyani müayinədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İctimai şuranın sədr müavini, Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Mirzəyev və şuranın üzvü, "Mina Qurbanlarının Sosial İqtisadi Problemlərinin Həllinə Kömək" İctimai Birliyinin sədri Məmmədhəsən Həsənov iştirak ediblər.

Aparılan müayinələrdə mühüm prinsip əlillik təyinatlarının şəffaf və obyektiv aparılmasının təmin edilməsi, əsassız təyinatların ləğvidir.

# Böyük uğurlar qazanmaq əzmi...



Müharibələr zamanı düşmənə qalib gəlməyin, onu məğlub etməyin əsas amillərindən biri də sərəncamında olan canlı qüvvədən, silah-sursatdan və zirehli texnikadan bacarıqla istifadə etməkdir. Əgər sərkərdə bundan bacarıqla istifadə edirsə, deməli, qələbəni daha da tezləşdirmiş və düşməni qısa zamanda məğlubiyyətə uğratmış olur.

Döyüşlərdə düşmən üzərində qələbənin qazanılmasında zirehli texnikanın, o cümlədən tankın rolu böyükdür.

44 gün davam edən Vətən müharibəsində tankçılarımız da döyüşlərdə hünər və qəhrəmanlıqlar göstərdilər. Ermənistan ordusu üzərində qələbənin qazanılmasında "N" hərbi hissənin tankçılarının da böyük əməyi oldu. Döyüşlərin davam etdiyi günlərdə onlar qəsbkarlara ağır zərbələr endirdilər. Düşmən mövqelərinin yarılmasında, dayaq məntəqələrinin darmadağın edilməsində, yüksəkliklərin azad olunmasında fədakarlıq nümunələri göstərdilər.

Döyüşləri uğurla başa vurub geri döndükdən bir müddət sonra tankçılar uğurlara baxmayaraq, yenə də təlim keçir, döyüş hazırlıqlarını, peşəkarlıqlarını artırırdılar. Onların təlim-məşqlərini izləmək, bizdə xoş təəssüratlar oyatdı.

Məşğələnin mövzusuna uyğun olaraq tankçılar cəld hərəkətlər edir, verilən tapşırıqları bacarıqla yerinə yetirirdilər. Heyət nəfərləri təyin olunan vaxt çərçivəsində zirehli texnikada yerlərini tuturlar. Tank komandiri təlimin gedişinə nəzarət edir. Hərəkətlərin düzgün yerinə yetirilməsinə xüsusilə diqqət ayırır. Hiss olunur ki, əsgərlərin hazırlığından razıdır.

Tankçıların yüksək hazırlığını, peşəkarlığını gördükcə ürəyim dağa dönür. Fikirləşirəm ki, əgər onların hazırlığı yüksək olmasaydı, erməni qəsbkarlarına belə sarsıdıcı zərbələr vura bilməzdilər. Deməli, böyük sərkərdələr çox düzgün deyiblər ki, təlimdə tər - döyüşdə zəfər!

Təlimdə fasilə elan olunanda, heyət nəfərlərinə yaxınlaşıb tanış olduq. Tank komandiri leytenant Məhəmməd Quliyev söhbət zamanı dedi ki, Vətən müharibəsi başlayan kimi biz tankçıları da əks-həmlə əməliyyatlarına cəlb etdilər. "Ağdərə rayonu, Talış və Suqovuşan kəndləri uğrunda gedən döyüşlərdə iştirak etdik. Bu istiqamətdə döyüş tapşırıqlarını yerinə yetirdikdən sonra Qubadlı və Laçın rayonları uğrunda gedən əməliyyatlara qoşulduq. Döyüşlər zamanı üzərimizə düşən bütün tapşırıqların öhdəsindən bacarıqla gəldik. Dəqiq zərbələrlə erməni qəsbkarlarının mövqelərini, dayaq məntəqələrini dağıtdıq. Piyadaların düşmən üzərinə irəliləməsini təmin etdik. Qələbənin qazanılmasına, torpaqlarımızın düşməndən azad edilməsinə biz tankçılar da öz töhfəmizi verdik".

"Döyüşlərdən hərbi hissəyə dönən kimi əməliyyatlarda iştirak edən zirehli texnikalar yuyulub təmizləndi, texniki xidmət göstərildi", - deyə zabit sözünə davam etdi. "İşlərimizi başa çatdırdıqdan sonra təlim-məşqlərə başladıq. Komandanlığın təsdiq etdiyi döyüş hazırlığı planına uyğun olaraq təlim-məşqlər keçir, yeni bilik və vərdişlərə yiyələnirik. Düzdür, biz döyüşlərdə qələbə qazanmışıq, düşməni məğlub etmişik. Ancaq qazanılan qələbələr bizi arxayınlaşdıra bilməz. Təlim keçirik ki, döyüş hazırlığımız daha da yüksək olsun".

Gizir Toğrul Muradov, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Nicat Tahirli və başqaları bildirdilər ki, bundan sonra da xidmətdə böyük uğurlar qazanmaq əzmindədirlər.

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyində vahid kommunikasiya strategiyasının təkmilləşdirilməsinin müzakirəsi məqsədilə görüş keçirilib



Aprelin 29-da Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsində nazirliyin vahid kommunikasiya strategiyasının təkmilləşdirilməsinin müzakirəsi məqsədilə görüş keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, görüşdə Müdafiə Nazirliyinin müxtəlif müəssisə və təşkilatlarından cəlb olunan zabit heyəti kommunikasiya strategiyasının təkmilləşdirilməsi istiqamətində ətraflı fikir mübadiləsi aparıb.

Təcrübələrin toplanılması və öyrənilməsi, analiz metodları, qiymətləndirmə və digər mövzulara dair sindikatlar keçirilib.

# İkinci Dünya müharibəsinin iştirakçılarına birdəfəlik maddi yardım veriləcək

Aprelin 29-da Prezident İlham Əliyev "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 1500 manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 750 manat məbləğində birdəfəlik maddi yardım veriləcək.

Bununla əlaqədar, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş ehtiyat fondundan 4,8 milyon manat vəsait ayrılacaq. Maliyyə Nazirliyi həmin vəsaitin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xüsusi hesabına köçürülməsini, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi birdəfəlik maddi yardımın isə bu Sərəncamda nəzərdə tutulmuş şəxslərə ödənilməsini təmin etməlidir.

# Heydər Əliyev adına AAHM-in kursantları Hərbi Qənimətlər Parkında olublar

***Azərbaycan Ordusunda şəxsi heyətə vətənpərvərlik hisslərinin aşılanması, gənclərdə hərbi vətənpərvərliyin tərbiyə edilməsi məqsədilə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantlarının Hərbi Qənimətlər Parkına ziyarəti təşkil olunub.***





Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, kursantlar 44 günlük Vətən müharibəsində düşməndən qənimət götürülən hərbi texnika və sursatlarla tanış olublar.

Sonda azad olunan ərazilərdən qənimət götürülən üzərində "Qarabağ Azərbaycandır!" yazısı yazılmış 2 mindən çox avtomobilin nömrə nişanlarından ibarət lövhə önündə xatirə fotosu çəkdirilib.

# "Vətən müharibəsi qəhrəmanlarının döyüş yolu örnəkdir"





(Əvvəli 1-ci səhifədə)

Toğrul Hümbətzadə ordu sıralarına Tərtər rayonundan çağırılıb. O, 2020-ci ilin Tovuz döyüşlərinin iştirakçısıdır. "Hərbi xidmətə gəldikdən sonra həyatı daha dərindən dərk etməyə başladım. Vətənə olan sevgim xidmət dövrümdə daha da artdı. Təcrübəli komandirlərimiz sayəsində mənə təhkim olunan silahın sirlərini dərindən mənimsədim. Keçirilən təlimlər sayəsində döyüş və mənəvi-psixoloji hazırlığımızı durmadan artırdıq. Bunun nəticəsi olaraq tarixi ədaləti bərpa etdik. Müharibənin başa çatmasına baxmayaraq, hərbi biliklərimizi daim yüksək səviyyədə saxlayırıq. Unutmuruq ki, bizim Ermənistan kimi mənfur və hiyləgər qonşumuz var. Xain düşmən hər an təxribata əl ata bilər.

Eləcə də əsgər yoldaşlarımızla asudə vaxtlarımızda şəhid və qazilərimizdən danışır, qəhrəmanların döyüş yolundan söhbət açırıq. Biz də dərk edirik ki, Vətən müharibəsi qəhrəmanlarının döyüş yolu örnəkdir", - deyə əsgər Toğrul Hümbətzadə bildirdi.

- Komandirlərimizin diqqət və qayğısı sayəsində hərbin sirlərinə dərindən yiyələnir, ən başlıcası isə, Vətənimizin keşiyində cəsarətlə dayanmağı öyrənirik, - deyə əsgər Nurəli Şirəliyev söhbətə başladı. - Onlar bizə döyüş vərdişləri ilə yanaşı, mərdlik, qəhrəmanlıq kimi mənəvi dəyərləri də aşılayırlar. Biz də komandirlərimizin göstərdiyi etimadı, inamı doğrultmağa çalışırıq. Etibar olunan mövqelərdə ayıq-sayıq, məsuliyyət hissi ilə xidmət edirik. Hər birimiz Vətənimizin keşiyində dayanmaqdan qürur duyuruq.

Əsgər Hüseyn Məmmədov söhbətimizə qoşularaq yaradılan şəraitdən ürəkdolusu danışdı. O bildirdi ki, döyüş mövqelərinin dağlıq ərazidə yerləşməsinə baxmayaraq, burada hər cür şəraitlə təmin olunublar. "Komandanlığın göstərdiyi bu cür qayğı qarşısında xidmətimizi düzgün təşkil etmək hər birimizin borcudur."

Əsgərlər Vüqar Dadaşov, Xosrov Məmmədli, Elvin Ağazadə və başqaları Vətənimizin müdafiəsi kimi müqəddəs vəzifənin onlara həvalə olunduğundan fərəhləndiklərini bildirdilər.

Beləliklə, məğrur Azərbaycan əsgəri ilə söhbət etdikcə bir daha əmin olduq ki, ordu sıralarında mətinlik, qəhrəmanlıq kimi mənəvi keyfiyyətlərə malik gənclər formalaşıb, daha da yetkinləşiblər.

**Leytenant Elçin İMANOV, "Azərbaycan Ordusu"**



# Cəmşid Naxçıvanski adına Hərbi Liseydə şəhid zabitin xatirəsi anıldı



***Azərbaycan Respublikası Prezidentinin 14 aprel 2021-ci il tarixli sərəncamına əsasən, Müdafiə Nazirliyində C.Naxçıvanski adına Hərbi Liseyin yaranmasının 50 illik yubiley tədbirləri keçirilməkdə davam edir. Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkil etdiyi növbəti tədbir liseyin klubunda baş tutdu. Şəhid polkovnik-leytenant Qərib İnqilab oğlu Baxşəliyevin xatirəsinə həsr olunan mərasim ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını fəda edən şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə açıq elan olundu. Mərasimdə liseyin zabitləri, kursantları, müəllimləri, şəhidin ailə üzvləri iştirak etdilər.***

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin əməkdaşı Gülxar Məmmədova öncə şəhid zabitin həyatı və keçdiyi döyüş yolu barədə qısa məlumatı tədbir iştirakçılarının diqqətinə çatdırdı. Əlavə olaraq bildirdi ki, torpaqlarımızın yadelli işğalçılardan azad edilməsi zamanı həyatını Vətən yolunda fəda edən hər bir şəhidin xatirəsi bizim üçün əzizdir. “Erməni vandalları təkcə torpaqlarımızı işğal etməyib, həm də yurd-yerlərimizi viran qoyub, əsir düşən soydaşlarımıza insanlığa sığmayan işgəncələr verməkdən çəkinməyiblər. 30 ilə yaxın davam edən erməni işğalı ilə xalqımız heç zaman barışmayıb. Həmişə doğma yurd-yerlərimizi azad etmək üçün cəsur oğullar döyüşə hazır olublar. Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında 44 gün davam edən Vətən müharibəsi bir daha sübut etdi ki, Azərbaycan xalqı heç vaxt öz torpağını düşmənə təslim etməz. 44 günlük Vətən müharibəsində işğalla barışmayacağını bildirən xalq beynəlxalq aləmdə tanınan ərazi bütövlüyünü mütləq şəkildə təmin etdi və bunun üçün düşmənə layiqli cavab verdi”.

Polkovnik Müslüm Nəsirov şəhid Qərib Baxşəliyevlə Füzuli, Qubadlı istiqamətində gedən döyüşlərdə birgə vuruşduğunu bildirdi. Həmçinin qeyd etdi ki, Qərib cəsarətli, qorxubilməz bir döyüşçü idi. Belə qəhrəmanların fəaliyyəti nəticəsində 30 ilə yaxın erməni işğalı altında olan ərazilərimizi azad edə bildik.

Şəhid polkovnik-leytenant Qərib Baxşəliyevin vaxtilə komandiri olduğu bölmədə kursant olan, Vətən müharibəsində düşmən gülləsindən yaralanaraq həkimlərin ciddi səyi nəticəsində sağlamlığı bərpa edilən mayor Mahir Hüseynov bildirdi ki, yaralananda o, huşunu itirib. Lakin ayılandan sonra onun ilk danışmaq istədiyi şəxs müəllimi olan Qərib Baxşəliyev olub. Ona zəng edəndə telefonuna zəng çatmayıb. Vətənpərvərliyi, döyüşməyin incəliklərini ona aşılayan komandirinə hər zaman borclu olduğunu ifadə etdi.

Şəhidin bacısı Sevinc xanım çıxışında bildirdi ki, qardaşı Qərib C.Naxçıvanski adına Hərbi Liseydə oxumasa da, tale elə gətirib ki, hərbi xidmətin böyük hissəsini burada keçirib. “Bu gün liseydə onun xatirəsini əziz tutduqları üçün Müdafiə Nazirliyinin rəhbərliyinə, eləcə də məktəbin rəhbərliyi başda olmaqla zabit, kursant və müəllim heyətinə ailəmiz adından dərin təşəkkürümü bildirirəm”.

Çıxış edənlər, şəhidin atası İnqilab Baxşəliyev, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi mayor İlkin Qayıbov, liseyin müəllimi Sahib Əsədov və başqaları bildirdilər ki, vətənpərvər zabit şəhid Qərib Baxşəliyevin keçdiyi şərəfli döyüş yolu hər zaman xalqımızın qəlbində əbədi yer tutacaq.

Mərasim Müdafiə Nazirliyinin Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin Mahnı və Rəqs Ansamblının solistlərinin ifasında vətənpərvər mahnıların səsləndirilməsi ilə başa çatdı.

**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Hərbi hissədə “Eşqdir mehrabı uca göylərin” adlı tədbir keçirildi





***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2021-ci il "Nizami Gəncəvi ili" elan edilib. Təsdiq olunan tədbirlər planına əsasən, "N" hərbi hissəsində Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyinə həsr edilən "Eşqdir mehrabı uca göylərin" adlı ədəbi-musiqili tədbir keçirildi. Əvvəlcə ümummilli lider Heydər Əliyevin və müstəqilliyimiz, ərazi bütövlüyümüz uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.***

Çıxış edən Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi mayor İlkin Qayıbov cari ilin "Nizami Gəncəvi ili" elan edilməsinin, ölkə rəhbərliyi tərəfindən milli-mənəvi dəyərlərə xüsusi diqqət yetirildiyinin, azərbaycançılığa, onun tarixinə və mədəniyyətinə olan ehtiramın təzahürü olduğunu qeyd etdi. Zabit bildirdi ki, milli-mənəvi dəyərlərə hörmət ulu öndər Heydər Əliyev siyasi kursunun mühüm tərkib hissəsi kimi bu gün də onun layiqli davamçısı, Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. "Klassik Azərbaycan şairi Nizami Gəncəvinin anadan olmasının 880 illik yubileyinin ölkə səviyyəsində silsilə tədbirlərlə təntənəli şəkildə qeyd edilməsi ölkəmizdə Nizami irsinə və cəmiyyətin aynası olan yazıçı, şair, filosof və mütəfəkkir şəxsiyyətlərə bəslənən ehtiramın göstəricisidir. Nizami Gəncəvi yaxın şərq xalqlarının mədəniyyətinin inkişafı tarixində müstəsna rolu olan dahi sənətkardır. Böyük şairin zəngin yaradıcılığı qədim tarixə malik Azərbaycan mədəniyyətində də yeni parlaq mərhələdir. Nizami öz əsərləri ilə şərq ictimai bədii fikrində yeni bir səhifə açaraq, bədii yaradıcılıqda əsrlər boyu təqdir olunan, məhəbbətlə izlənilən, bu gün belə öz həyati əhəmiyyətini itirməyən ölməz ənənələr gətirib. Onu da qeyd edim ki, bir mədəniyyət müəssisəsi kimi mütəmadi olaraq hərbi hissələrdə dahi mütəfəkkirin yubileyinə həsr olunan silsilə tədbirlər keçirir, Nizami irsinin gənc nəslə tanıdılması istiqamətində geniş işlər aparırıq".

Nizami Gəncəvinin həyat və yaradıcılığından geniş söz açan mərkəzin rəisi çıxışını Prezident, Ali Baş Komandan İlham Əliyevin dediyi "Azərbaycan xalqının ən qiymətli sərvəti onun milli-mənəvi dəyərləridir. Klassik ədəbiyyatımız isə bu dəyərlərin ən qiymətli incisidir. Hər bir azərbaycanlı bu dəyərlərə sahib çıxmalı, onu qorumalı və gələcək nəsillərə ötürməlidir. Çünki ədəbiyyat və mədəniyyət fədakarlıqdan doğan bir anlayışdır" sözləri ilə başa vurdu.

Hərbi hissənin zabiti mayor Fərhad Ömərov çıxış edərək hərbi qulluqçular qarşısında belə tədbirlərin keçirilməsinin şəxsi heyətə milli-mənəvi dəyərlərin aşılanmasında və vətənpərvərlik ruhunun yüksəldilməsində mühüm rol oynadığını vurğuladı. O bildirdi ki, qüdrətli söz və fikir ustadı insanları daim əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığa malik olub. Eləcə də söz sənətinin təsiredici qüvvəsindən müasirlərini mənən təmizliyə çağırmaq kimi bəşəri bir məqsəd üçün istifadə edərək dövrünə görə çox mütərəqqi problemlərə toxunub və yüksək bəşəri ideyalar tərənnüm edib. Nizami irsindən danışan zabit, həmçinin dahi şairin qələmə aldığı incilərdən nümunələr səsləndirdi.

Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin Mahnı və Rəqs Ansamblının ifasında Nizami Gəncəvi və Əfsələddin Xaqaninin əsərlərinə yazılmış romanslar və muğamlardan ibarət "Eşqdir mehrabı uca göylərin" adlı ədəbi-musiqili kompozisiyalar təqdim olundu.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

## Şəhidlərimizin ailələrinə və qazilərimizə dəstək məqsədilə “YAŞAT” Marafonuna start verilir

Bu gündən şəhidlərimizin ailələrinə və qazilərimizə dəstək məqsədilə Azərbaycan Respublikasının Diaspora İş üzrə Dövlət Komitəsinin və "YAŞAT" Fondunun təşəbbüsü, Azərbaycan Diasporuna Dəstək Fondunun maliyyə dəstəyi və təşkilatçılığı ilə "YAŞAT" Marafonuna start verilir. Marafonun məqsədi qazilərimizə və şəhidlərimizin ailələrinə dəstək məqsədilə dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizi dəmir yumruq kimi bir araya gətirərək "YAŞAT" Fonduna ianə etməyə çağırışdır.

AZƏRTAC xəbər verir ki, bunu "YAŞAT" Fondunun rəhbəri, Qarabağ qazisi Elvin Hüseynov deyib.

E.Hüseynovun sözlərinə görə, mayın 25-də saat 21:00-da "YAŞAT" Marafonunun yekunu ictimaiyyətə açıqlanacaq. Marafonda bütün dünya azərbaycanlıları "Gəlin Yaşadaq" şüarı altında birləşərək, qələbəni bizə yaşadanlara və Zəfər tarixini yazanlara dəstək olacaq, onların xoş xatirələrini yada salacaqlar: "Videoyayım formatında təşkil ediləcək Marafon Azərbaycan Televiziyasında (AzTV) canlı nümayiş etdiriləcək. Marafon müddətində müxtəlif ölkələrdə yaşayan həmvətənlərimizlə və tanınmış şəxslərlə canlı bağlantılar təşkil ediləcək, şəhidlərimizin ailələri, Vətən müharibəsi qəhrəmanları və qazilərimiz çıxış edəcəklər. Eyni zamanda, "YAŞAT" Fondu tərəfindən qısa müddətdə görülən işlər barədə hesabat təqdim olunacaq".

Ictimai-siyasi hazırlıq

# "İctimai-siyasi hazırlıq dərslərinin önəmi böyükdür"



***Bu gün rəşadətli Azərbaycan Ordusunun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsi istiqamətində geniş islahatlar aparılır. Əsgərlərimizin vətənpərvərlik ruhunun və mənəvi-psixoloji vəziyyətinin yaxşılaşması üçün təcrübəli və peşəkar komandir heyəti əllərindən gələni əsirgəmirlər. Keçirilən məşğələlər şəxsi heyətdə milli-mənəvi dəyərlərimizə daha sıx bağlılıq aşılayır. Bunun sayəsində mənəvi-psixoloji hazırlığı yüksək olan Azərbaycan əsgəri Vətənə olan övladlıq borcunu məsuliyyətlə yerinə yetirir.***

"N" hərbi hissəsində müasir avadanlıqlarla təchiz olunan ideoloji otaqda şəxsi heyət ictimai-siyasi hazırlıq dərsi keçirdi. Dərs otağında ordumuzun inkişaf tarixinin mərhələlərini, Ümummilli Liderimizin fəaliyyətini, ölkə başçısının və ordu rəhbərliyinin şəxsi heyətlə görüşlərini, dövlət atributlarımızı, tarixi qəhrəmanlarımızı və qan yaddaşımızı əks etdirən eksponatlar diqqətimizdən yayınmadı. Həmçinin, torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə yüksələn Vətən oğullarının foto guşələrinin yaradılması bölmədə ideoloji, təbliğat və təşviqat işinin yüksək səviyyədə aparıldığını göstərirdi. Yaradılan şərait əsgərlərimizin mənəvi-psixoloji hazırlığında, vətənpərvərlik ruhunun artırılmasında, komandirlərə inam hissinin yüksəldilməsində mühüm rol oynayır. Dərs rəhbəri leytenant Cavad Cavadzadə dərs haqqında şəxsi heyətə ətraflı məlumat verdi. Əsgərlər də öz növbəsində zabiti diqqətlə dinləyir, lazımi məlumatları qeyd edirdilər.

Yaranan fasilədən istifadə edib C.Cavadzadə ilə həmsöhbət olduq. "Keçirilən ictimai-siyasi hazırlıq dərsləri sayəsində əsgərlərimiz tarixi biliklərini artırır, dünyagörüşlərini zənginləşdirirlər. Vətənə sevgi, düşmənə nifrət hissini formalaşdırmaq üçün şəxsi heyətdə vətənpərvərlik ruhunu daima yüksəkdə tutmaq tələb olunur. Bunun üçün isə tarixi mövzularda mütəmadi olaraq söhbətlər aparılır. Ordumuzun keçdiyi şanlı döyüş yolu haqqında onlara ətraflı məlumatlar verilir", - Cavad Cavadzadə dedi.

Zabit, həmçinin dərs cədvəlinə uyğun olaraq həftədə iki dəfə şəxsi heyətlə ictimai-siyasi hazırlıq dərslərinin keçirildiyini bildirdi. "Vətənin müdafiəsində dayanan şəxsi heyətin mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsi istiqamətində Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən müvafiq tapşırıqları yerinə yetiririk. Bu istiqamətdə görülən vacib işlərdən biri də ictimai-siyasi hazırlıq dərsləridir. Şəxsi heyətin vətənpərvər və nizam-intizamlı olmasında ictimai-siyasi hazırlıq dərslərinin önəmi böyükdür".

Zabitlə söhbətimizi yekunlaşdırdıqdan sonra əsgərlərimizin keçirilən dərslər haqqında fikirlərini öyrəndik. Əsgər Rəhman Əlizadə ictimai-siyasi hazırlıq dərslərinin səmərəli təşkil olunduğunu, keçirilən dərslərin onların dünyagörüşünə müsbət təsir etdiyini bildirdi. "Əsgəri xidmət bizə bir çox üstün keyfiyyətlər aşılayır. Komandirlərimizdən döyüş hazırlığı, silahlar haqqında biliklər öyrənirik. Digər dərslər kimi, bu dərsdə də həvəslə iştirak edir, qrup rəhbərimizin danışdıqlarını diqqətlə dinləyir, lazımi qeydlərimizi aparırıq. Hər dərsdə fərqli mövzulardan yeni-yeni məlumatlar əldə edirik".

Növbəti həmsöhbətim əsgər Rüfət Quliyev oldu. Hərbi xidmətə Bakı şəhərindən çağırılan Rüfət dedi ki, günün nizam qaydasına uyğun olaraq keçirilən ictimai-siyasi hazırlıq dərsləri də bizim bacarıqlı əsgər kimi formalaşmağımıza istiqamətlənir, eyni zamanda, mənəvi-psixoloji hazırlığımıza müsbət təsir edir. Hərbi qulluqçu onu da vurğuladı ki, dərslərdə tarix boyu ermənilərin xalqımıza qarşı törətdiyi vəhşiliklərdən, hərb tariximizdən, ordumuzun şanlı qələbəsi ilə başa çatan Vətən müharibəsindən, bu döyüşlərdə igid oğullarımızın göstərdikləri qəhrəmanlıq nümunələrindən geniş söhbətlər edilir. Bundan əlavə, Rüfət bu biliklərin onların həm də cəmiyyətə yararlı vətəndaş kimi formalaşmasında böyük rol oynadığını da qeyd etdi.

Digər əsgərlər də keçirilən ictimai-siyasi hazırlıq dərslərinin onların döyüş ruhuna, qələbə əzminə, vətənpərvərlik hissinə müsbət təsir etdiyini bildirdilər. Onlar komandir heyətinin rəhbərliyi altında keçirilən bütün dərsləri yüksək səviyyədə mənimsəməyə çalışdıqlarını dedilər.

**Leytenant**
**Elçin İMANOV,**
**"Azərbaycan Ordusu"**

Sıra hazırlığı

# Sıra hazırlığı yüksək intizam aşılayır

***Rəşadətli Azərbaycan Ordusunun bütün bölmələrində hərbi xidmət keçən gənclərə tələb olunan bütün təlim-məşqlərin keyfiyyətlə keçirildiyi hamıya bəllidir. Gənclər xidmətə gəldiyi gündən nizamnamə ilə təyin olunmuş fəaliyyətlərlə məşğul olurlar. Keçirilən dərslər onların nizam-intizamlı, silahlardan istifadə etməyi bacaran, bir sözlə, yüksək döyüş hazırlıqlı əsgərlər kimi formalaşmasında mühüm rol oynayır. Danılmaz faktdır ki, döyüş hazırlığı təkcə silahdan istifadə etməyi bacarmaq deyil. Döyüş hazırlığı ilə yanaşı, əsgərin fiziki hazırlığı, nizam-intizamı, döyüş ruhu da yüksək olmalıdır. Bunların arasında ən başlıcası nizam-intizamdır. Çünki nizami ordu olmasa, heç bir döyüş hazırlığından danışmaq olmaz. 44 günlük Vətən müharibəsi də bu fikirlərin əyani təsdiqi oldu. Nizami və güclü ordumuz düşmən üzərində inamlı qələbə qazandı. Tarixi qələbəmiz ordumuzda dəmir intizamın olduğunu bir daha göstərdi.***



Ordu quruculuğunda daim diqqətdə saxlanılan məqamlardan biri şəxsi heyətin hərbi intizamıdır. Xidmətə gələn gənclərin hərbi həyatı ilə ilk tanışlığı məhz sırada olur. Çağırışçılar hərbi hissəyə qədəmlərini qoyan ilk gündən sıraya düzülür, sonrakı fəaliyyətləri izah olunur. Onlara sıranın müqəddəsliyi çatdırılır, digər intizam xarakterli davranışların bünövrəsinin məhz sırada qoyulduğu bildirilir.

Əsgərlərin gündəlik fəaliyyətləri arasında sıra hazırlığı dərsləri mühüm yer tutur. Həmin dərslərdə əsgərlərə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Sıra Nizamnaməsinə uyğun olaraq dərslər keçirilir, sırada silahsız və silahla sıra hərəkətləri, əsgəri salamlaşma qaydaları, hərbi qulluqçuların düzülüşdən qabaq və sırada vəzifə borcları, sıra hazırlığına olan tələblər, yuxarı rəislərə yaxınlaşma və digər elementlər öyrədilir.

"N" hərbi hissəsində əsgərlərin sıra hazırlığının şahidi olduq. Sıra meydanının göz oxşayan genişliyi və sıra hazırlığı elementlərinin yerinə yetirilməsi üçün asfalt üzərində çəkilən ağ xətlərin, düzbucaqlı formasında fiqurların canlılığı dərs keçən zabit və əsgərlərin də, bizlərin də zövqümüzü oxşayır, dərsin daha səmərəli keçirilməsinə zəmin yaradır.

Dərsi maraqla izlədik. Əsgərlər sırada silahla hərəkətlərin qaydalarını öyrənirdilər. Dərs rəhbəri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Elşən İbrahimlinin komandası ilə əsgərlər silahın qayışda vəziyyətindən sinəyə və ya əksinə, həmçinin ayağa alınması, yerə qoyulması və digər komandaları bacarıqla icra edirdilər. Verilən komandaların cəld və dəqiq yerinə yetirməsindən yaranan səs dalğaları, demək olar ki, hərbi hissənin bütün ərazisinə yayılırdı. Şəxsi heyətin hərəkətləri eyni anda və nizamla yerinə yetirməsindən yaranan ritmik səslər, əsgərlərin şux qaməti, məğrur baxışları, qabaran sinələri və verilən bütün komandaları cəld və nizamlı şəkildə yerinə yetirmələri xoş ovqat bəxş edirdi. Nizami ordumuzla, əsgərlərimizlə bir daha qürur duyur, qalib ordunun vətənpərvər, igid, təcrübəli oğulları ilə öyünürdüm.

Fasilə vaxtından istifadə edərək əsgərlərlə həmsöhbət olduq.

"Nizam-intizam sıradan başlayır", - Elşən İbrahimli dedi. - Dərsə başlamazdan əvvəl əsgərlərə sıranın müqəddəsliyindən danışıram. Bu sıralarda Vətən uğrunda canlarından keçən neçə-neçə qəhrəman oğulların dayandığını izah edirəm. Şahidi oldunuz ki, əsgərlərin hər biri verilən komandaları necə bacarıqla icra edirlər. Onların dərsə belə həvəs göstərməsi, bacarıq nümayiş etdirməsi mənə də müsbət təsir edir. Sevinirəm ki, vaxtilə mənə öyrədilən hərbi bilikləri mən də əsgərlərə öyrətməklə vəzifəmin öhdəsindən layiqincə gəlməyə çalışıram.

Murad Əlizadə, Akif Ağazadə, Bəxtiyar Cəfərov, Murad Hüseynov, Elmar Həsənov və başqalarının sözlərindən əmin olduq ki, onların hər biri Vətənə sonsuz sevgi ilə bağlıdır. Əsgəri xidmətin vacibliyini, məsuliyyətini yaxşı dərk edirlər. Yüksək əhval-ruhiyyə ilə xidmət edirlər. "Biz burada Vətənə övladlıq borcumuzu yerinə yetiririk. Bu vəzifə hər birimiz üçün müqəddəsdir. Vətən müharibəsində şanlı qələbə qazanan ordumuzun gücü və qüdrəti bütün dünyaya bəllidir. Fəxr edirik ki, Azərbaycan Ordusunun sıralarındayıq. Həm də ikiqat qürurluyuq ki, biz də döyüşlərin iştirakçısı olduq. Bu, hər bir gəncin bir ömür boyu qürur duyacağı hisslərdir. Xidmətimizi uğurla davam etdiririk. Keçirilən dərslərdə fəal iştirak edir, döyüş hazırlığımızı daha da artırırıq. Hər birimiz yaxşı anlayırıq ki, ordumuzun adına layiqli, intizamlı əsgərlər olmalıyıq. İntizamın da əsasını təşkil edən sıra hazırlığı dərslərində bütün öyrədilənləri həvəslə mənimsəyirik. Sıra hazırlığı elə bir dərsdir ki, gündəlik bütün fəaliyyətlərimizin tərkib hissəsidir. Hərbi xidmətdə bütün fəaliyyətlərimiz sıra ilə tənzimlənir. Ona görə də sıra meydanında öyrədilən nizam-intizama daim əməl edirik", - əsgərlər dedilər.

Fasilə vaxtı bitdi. Əsgərlər yenidən silahlarını götürüb cəld şəkildə təyin olunan yerdə düzülərək dərsə davam etdilər. Onların nizam-intizamı, sırada davranışları, aralarındakı sağlam mühit, ordumuzda dəmir intizamın olduğunu bir daha nümayiş etdirir.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** 1918-1920-ci illərdə Azərbaycanda baş verən ictimai-siyasi hadisələr. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, fəaliyyəti və süqutu.

**Suallar:**

**1. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət.**

**2. Azərbaycanın öz müstəqilliyini elan etməsi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət quruculuğu.**

**3. Azərbaycan Xalq Cümhuriyyətinin süqutunun əsas səbəbləri.**

### Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət

Qədim və zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı keçmişinin müəyyən dövrlərində tarixin hökmü ilə böyük imperiyalar tərkibinə qatılmaq məcburiyyətində qalmışdır. Bəşəriyyət tarixinin ən dəhşətli və ən qanlı hərbi-feodal müstəmləkə rejimi olan çar Rusiyası da Azərbaycan xalqının dövlətçilik ənənələrini məhv edə bilmədi. Əsarət altına salınmış türk-müsəlman xalqlarının milli mənlik şüurunu və qədim dövlətçilik ənənələrini məhv etmək siyasəti yeridən Rusiya imperiyası Cənubi Qafqazı bu siyasətin ən dəhşətli qanlı qırğın meydanına çevirmişdi. Bu qəddar siyasətin son məqsədi Cənubi Qafqazı Azərbaycanın türk-müsəlman əhalisindən "təmizləmək", bundan sonra İran və Türkiyəni aradan qaldırıb rahatca isti dənizlərə çıxmaq, bununla da Rusiyanın tarixi arzusuna, Hindistana yetişmək niyyətinə nail olmaq idi. Məhz bu məqsədlə də bir tərəfdən imperiyanın ayrı-ayrı yerlərindən Azərbaycan ərazisinə müxtəlif mənşəli xristian əhali köçürülüb gətirilir, digər tərəfdən də yerli əhalinin xristianlaşdırılması və ruslaşdırılması siyasəti yeridilirdi. Ən dəhşətlisi isə bu idi ki, həmin qanlı siyasəti daha uğurla həyata keçirmək üçün erməni-müsəlman qırğınları törədilirdi. Ölkənin şimal-qərb hüdudlarında isə Azərbaycan və gürcü xalqları arasına nifaq salmaq siyasəti yeridilirdi. Bir sözlə, Azərbaycan çar Rusiyasının milli-müstəmləkəçilik siyasətinin ən dəhşətli sınaq meydanına çevrilmişdi.

Birinci Dünya müharibəsinin gedişində "xalqlar həbsxanası" olan Rusiya imperiyasının dağılması üçün real tarixi şərait yaranarkən Azərbaycan xalqı həm qədim dövlətçilik ənənələrinə, həm də ən müasir idarəçilik mədəniyyətinə yiyələndiyi üçün müstəqil dövlət halında yaşamağa hazır idi. 1917-ci ilin fevralında Rusiyada Romanovlar mütləqiyyəti (mütləq monarxiya) devrildi. Monarxiya rejimi aradan qaldırıldıqdan sonra hakimiyyətə gələn Müvəqqəti hökumət Cənubi Qafqazın idarəçiliyi üzrə Xüsusi Komitə yaratdı. Komitəyə Dövlət Dumasının yerli üzvləri daxil edilmişdi. Fevral inqilabının siyasi həyata gətirdiyi canlanma nəticəsində Azərbaycanın müxtəlif sahələrində müsəlman milli şuraları yaradıldı. Onların arasında ən güclüsü və nüfuzlusu Bakı Müsəlman İctimai Təşkilatları Şurası idi. Özünün ümummilli xətti ilə kütləviliyini artıran və Bakıda siyasi üstünlüyə malik olan bu şura tərkibinə milli-azadlıq hərəkatının liderləri olan Məmməd Əmin Rəsulzadə, Fətəli Xan Xoyski, Əlimərdan bəy Topçubaşov, Mehdi bəy Hacınski kimi ziyalılar daxil idilər.

### Azərbaycanın öz müstəqilliyini elan etməsi. Azərbaycan Xalq Cümhuriyyəti (AXC) dövründə dövlət quruculuğu

Mayın 27-də Seymin Müsəlman Fraksiyasının (faktiki olaraq Zaqafqaziya Müsəlman Parlamentinin) üzvləri ayrıca iclaslarını keçirdilər və Azərbaycanın müstəqilliyini elan etmək qərarına gəldilər. Bu məqsədlə Zaqafqaziya Müsəlman Şurası özünü Azərbaycan Milli Şurası, daha doğrusu, Azərbaycan Parlamenti elan etdi. 1918-ci il mayın 27-də keçirilən həmin iclasda Azərbaycan Milli Şurasının Rəyasət Heyəti və sədri seçildi. M.Ə.Rəsulzadə Milli Şuranın sədri oldu. Mayın 28-də Tiflisdə canişin sarayında keçmiş seymin Azərbaycan fraksiyasının 44 nümayəndəsindən 26 nəfərinin iştirak etdiyi Milli Şuranın birinci iclasında Azərbaycanın müstəqil dövlət elan olunması haqqında qərar qəbul olundu və "İstiqlal bəyannaməsi"nin mətni təsdiqləndi. Cənubi Qafqaz respublikaları ilə sərhəd məsələləri qismən nizama salındıqdan sonra Azərbaycan Xalq Cümhuriyyəti Cənubi Qafqazdakı tarixi Azərbaycan torpaqlarının 113.9 kv. km-ni əhatə etmiş, əhalisi isə 2.8 milyondan çox olmuşdur.

Gənc Azərbaycan dövləti son dərəcə mürəkkəb daxili və beynəlxalq şəraitdə doğulmuşdu. Bakıda hakimiyyəti S.Şaumyanın başçılıq etdiyi daşnak-bolşevik qrupu ələ keçirmiş və Azərbaycanın türk-müsəlman əhalisinə qarşı dəhşətli soyqırımına başlamışdı. Çar generalları tərəfindən silahlandırılmış erməni quldur dəstələri Şərqi Anadolunun və Qərbi Azərbaycanın türk-müsəlman əhalisinə qarşı qanlı qırğını - soyqırımını davam etdirirdilər. Azərbaycan xalqına qarşı soyqırımı və qırğınlar törədən Şaumyan və Andranik əlbir fəaliyyət göstərirdilər. Azərbaycan xalqı fiziki cəhətdən məhv edilmək təhlükəsi qarşısında idi. Neft Bakısını ələ keçirməyə çalışan xarici qüvvələr arasındakı rəqabət sona çatmaqda və bütün Cənubi Qafqaz üçün yeni təhlükə - bolşevik Rusiyasının təcavüzü təhlükəsi yaxınlaşmaqda idi. Azərbaycan xalqı öz tarixinin ağır yolayrıcında qalmışdı: ya Milli qurtuluş, ya da ki, məhv edilərək Cənubi Qafqazın etnik-siyasi xəritəsindən tamamilə silinib götürülmək. Azərbaycanı müstəqil dövlət elan etmiş Cümhuriyyət xadimləri məhz belə bir tarixi şəraitdə çaşqın vəziyyətə düşmüş və çıxış yolu tapa bilməyən xalqın önünə keçdi. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin ilk Parlamenti Azərbaycan Milli Şurası özünün ilk addımlarını atmağa başladı. Azərbaycan Milli Şurasının 1918-ci il mayın 27-dən iyunun 17-dək davam edən və 20 gün sürən ilk fəaliyyəti dövründə cəmi 7 iclası keçirildi və bu iclaslarda başlıca olaraq iki mühüm qərar qəbul edildi: birincisi - Azərbaycanın istiqlalı elan olundu və İstiqlal bəyannaməsi qəbul edildi; ikincisi - Gəncədə Fətəli xan Xoyski başda olmaqla ilk Azərbaycan hökumətini formalaşdırdı və 1813-cü ildən sonra ilk dəfə olaraq Azərbaycanın müstəqil idarə olunmasına başlandı. Azərbaycanın bir hissəsində - Şimali Azərbaycanda respublika quruluşu yaradıldı.

İyulun 15-də Fövqəladə Təhqiqat Komissiyası yaratmaq barədə qərar qəbul olundu. Hökumətin başlıca vəzifəsi ölkənin bütün ərazisində AXC-nin hakimiyyətini bərqərar etmək, Bakını və onun ətraflarını Azərbaycan xalqının düşmənlərindən təmizləmək idi. İyunun 19-da Fətəli xan Xoyski dost Türkiyənin dəstəyinin əhəmiyyəti barədə Azərbaycan əhalisinə çağırış etdi və Azərbaycan ərazisində həmin gündən hərbi vəziyyət elan etdi. Batum müqaviləsinə əsasən, AXC-yə kömək üçün Türkiyə Ordusunun ümumi sayı 15000 nəfərdən ibarət iki diviziyası göndərildi. İyunun 24-də qırmızı parça üzərində ağ aypara və ağ səkkizguşəli ulduz təsvir olunan bayraq azad Azərbaycanın dövlət rəmzlərindən biri kimi qəbul olundu. İyunun 26-da Müsəlman hərbi korpusu ayrıca Azərbaycan Korpusuna çevrildi və bu da faktiki olaraq Azərbaycan Silahlı Qüvvələrinin yaradılması demək idi. Milli orduya səfərbərlik keçirildi. 1920-ci ilin yanvarında artıq 30 min nəfər piyada 10 min nəfər süvaridən ibarət ordu yaradılmışdı.

1918-ci il iyunun 27-də Azərbaycan-türk dili dövlət dili elan olundu və həmin gün Qafqaz İslam Ordusu Göyçay yaxınlığında Bakı Soveti qoşunları üzərində qələbə qazandı. Yelizavetpol və Qaryaginin tarixi adları bərpa olunaraq yenidən Gəncə və Cəbrayıl adlandırıldı. 1918-ci il sentyabrın 15-də ağır döyüşlərdən sonra Qafqaz İslam Ordusu Azərbaycan xalqının könüllü dəstələrinin köməyi ilə Bakını işğaldan azad etdi. Şəhər S.Şaumyanın bolşevik-daşnak rejimindən sonra hakimiyyəti ələ keçirmiş menşevik-daşnak tör-töküntülərindən "Sentrokaspi diktaturası"ndan təmizləndi. Sentyabrın 17-də hökumət Bakıya köçdü. Bakı paytaxt elan olundu. Noyabrın 9-da AXC-nin dövlət bayrağı üzərində aypara və səkkizguşəli ulduz təsviri olan üçrəngli bayraqla əvəz olundu.

Lakin Azərbaycanda siyasi hadisələrin inkişafı daxili proseslərdən daha çox I Dünya müharibəsinin gedişindən və nəticələrindən asılı idi. Azərbaycan öz mənafeyi naminə Osmanlı qüvvələrinin qalib gəlməsini arzulayırdı. Lakin Osmanlı ilə Antanta dövlətləri (Fransa, İngiltərə və ABŞ) arasında 1918-ci il 30 oktyabr Mudros müqaviləsinə görə məğlub sayılan Türkiyə qoşunlarını Azərbaycandan çıxarmalı, Antanta qüvvələrinin Bakıya girməsinə mane olmamalı, Zaqafqaziya dəmir yolu üzərindəki nəzarət hüququnu Antantaya güzəştə getməli idi. Noyabrın 17-də ingilis qoşunları Bakıya daxil oldular. Bakıda ingilis general-qubernatorluğu yaradıldı. İngilis qoşunlarının komandanı general Tomson Azərbaycanın müstəqilliyini tanımaq haqqında bəyanat verməkdən imtina etsə də, Azərbaycanın Paris Sülh Konfransında iştirak edəcəyi, Bakıya erməni hissələrinin daxil olmayacağı barədə öz üzərinə öhdəliklər götürdü. Dekabrın 7-də Azərbaycan Parlamentinin ilk iclası oldu. Parlamentin tərkibi: 80 azərbaycanlı, 21 erməni, 10 rus, yəhudi, alman, gürcü və polyak icmalarının hərəsinə 1, Həmkarlar İttifaqı Şurası və Neft Sənayeçiləri İttifaqı üçün 3 yer ayrılmaqla ümumilikdə 120 deputatdan ibarət idi. Əlimərdan bəy Topçubaşov parlamentin sədri Həsən bəy Ağayev isə onun müavini seçildi.

Təhsil sahəsində də mühüm nailiyyətlər qazanılaraq orta məktəblərin milliləşdirilməsi işinə başlandı və 1919-cu il sentyabrın 1-də Bakı Universitetinin əsası qoyuldu.

### Azərbaycan Xalq Cümhuriyyətinin süqutunun əsas səbəbləri

Azərbaycanın beynəlxalq aləmdə tanınmasına baxmayaraq ölkənin şimal sərhədlərindəki vəziyyət gərgin olaraq qalırdı. Rusiyanın cənubunda Denikinin qoşunlarına qalib gələn bolşeviklər Bakı neftinə sahib olmaq üçün öz qüvvələrini Azərbaycan sərhəddinə cəmləşdirərək işğala hazırlaşırdılar. Bolşeviklər Azərbaycanın daxilində də təxribatçılıq fəaliyyətini gücləndirirdilər. 1920-ci ilin fevralında A.Mikoyanın rəhbərliyi ilə yaranmış Azərbaycan kommunist (bolşevik) partiyasının əsas məqsədi ölkədaxili vəziyyəti gərginləşdirmək, təxribat yolu ilə bolşeviklərin hakimiyyətə gəlməsinə şərait yaratmaq idi.

Bolşevik Rusiyası Ermənistanın Azərbaycana qarşı düşmənçiliyindən məharətlə istifadə edirdi. 1920-ci ilin əvvəllərində erməni nümayəndələri Moskvada ərazi güzəştləri müqabilində Azərbaycan hökumətini devirmək üçün Qarabağ və Gəncəbasarda məskunlaşan erməni əhalisinin qiyamını təşkil etmək təklifini verdilər. 1920-ci ilin martında Qarabağda kütləvi erməni hücumlarının başlanması ilə əlaqədar Azərbaycan Ordusunun əsas qüvvələri bu bölgədə yerləşdirilmişdi. Şimal sərhədlərini qoruyan qüvvələrin böyük bir hissəsi də Qarabağa göndərilmişdi. Erməni silahlı birləşmələri ilə döyüşlərdə Azərbaycan Ordusunun hissələri canlı qüvvə, silah-sursat və əmlak itkilərinə məruz qalmışdılar. Aprelin 27-də parlamentin iclasında hərbi nazir Səməd bəy Mehmandarov ölkəni müdafiə barədə sorğuya cavab olaraq bildirdi ki, Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinə müqavimət göstərməyə qadir olsa da, bolşeviklərin hücumunun qarşısını almaq üçün kifayət qədər qüvvəyə malik deyildir.

1920-ci ilin aprelində Denikinin qoşunlarını məğlub edən XI qırmızı ordu Azərbaycanın sərhədlərinə yaxınlaşdı. Həmin günlərdə A.Mikoyan başda olmaqla Bakı bolşevikləri Azərbaycan xalqı adından XI rus ordusunu Azərbaycana dəvət etdilər. Aprelin 26-dan 27-nə keçən gecə XI qırmızı ordunun hissələri Azərbaycan ərazisinə daxil olub Bakıya doğru irəliləməyə başladılar. Aprelin 27-də saat 12:00-da Azərbaycan parlamentinə hakimiyyəti təhvil vermək haqqında ultimatum verildi. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti 23 aylıq fəaliyyətdən sonra süqut etdi. Aprel işğalı nəticəsində Azərbaycanda qurulan bolşevik rejiminin ömrü 70 il çəkdi. Lakin bu illərdə xalq özünün istiqlal arzularını unutmadı, nəsildən-nəslə ötürdü.

Nəhayət, 1991-ci ildə Azərbaycan yenidən öz müstəqilliyini bərpa etdi.

Müstəqilliyini bərpa edən Azərbaycan Respublikasının dövlət quruculuğunda Azərbaycan Xalq Cümhuriyyətinin təcrübəsindən istifadə xətti götürüldü. Həmin dövrün dövlət rəmzləri yenidən qəbul edildi. Lakin Azərbaycan Respublikasının yarandığı ilk günlərdən Ermənistan tərəfinin ərazi iddiaları, hakimiyyət uğrunda ölkədaxili çəkişmələr dövlət quruculuğunu ləngidir, müstəqilliyimizə təhlükə yaradırdı. 1991-1993-cü illərdə Azərbaycanda yaranmış ictimai-siyasi vəziyyətin dövlətçiliyimizi təhlükə altına qoyduğunu dərk edən hakimiyyət xalqın təkidi ilə görkəmli dövlət xadimi, dövləti idarəetmə təcrübəsinə malik olan Heydər Əliyevi ölkə rəhbərliyinə dəvət etdi. Məhz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra onun apardığı müdrik və uzaqgörən daxili və xarici siyasət nəticəsində Azərbaycan Respublikasının dövlət quruculuğunda və bu quruculuğun vacib sahələrindən biri olan ordu quruculuğunda əsaslı dönüş yarandı. Bu gün Azərbaycan nəinki öz müstəqilliyini qoruyub saxlaya bilmiş, hətta dünya dövlətləri arasında böyük nüfuza malik olan bir dövlət kimi layiqli yerini tutmuşdur.

Xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin tarixi əhəmiyyətini xüsusi vurğulayaraq demişdir: "Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycan torpağında yaradılması xalqımızın o dövrdə və o illər ərəfəsində - XIX əsrin sonunda və XX əsrin əvvəllərində milli müstəqillik, azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır. O illərdə xalqımızın qabaqcıl şəxsiyyətləri, mütəfəkkir adamları, ziyalıları xalqımızda milli azadlıq, milli müstəqillik duyğularını gücləndirmiş, milli dirçəliş, milli oyanış əhval-ruhiyyəsini yaymış və bunların hamısı məntiqi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gətirib çıxarmışdır".

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# "İşimizə böyük sevgi ilə yanaşırıq"






*"N" hərbi hissəsində şəxsi heyətin məişət şəraiti ilə yaxından tanış olmaq imkanı qazandıq. Hərbi hissədə müasir standartlara cavab verən qazanxana, yeməkxana, yataqxana, camaşırxana, istirahət, bərbər və hamam otaqları şəxsi heyətin istifadəsinə verilib. Diqqətimizi müasir tələblərə cavab verən, tamamilə avtomatlaşdırılmış avadanlıqlarla təchiz olunan camaşırxana cəlb etdi. Qadın operatorların səliqəli geyimi, burada olan təmizlik göz oxşayırdı.*

Camaşırxananın fəaliyyətindən söz açan baş çavuş Rəhman Quliyev bildirdi ki, şəxsi heyətin təmizliyi daim diqqət mərkəzində saxlanılır. Hamam günlərində bölmələr çirkli paltarları camaşırxanaya göndərirlər. Tez bir müddətdə camaşırları yuyulub ütüləndikdən sonra bölmələrə təhvil verilir. Təmiz paltarlar saxlanc otağında saxlanılır, hamam günlərində şəxsi heyətə paylanılır.

Əsgərlərə ana qayğısı göstərən operator-yuyucu Şəlalə Rəsulova dedi ki, camaşırxanada paltarların, dəsmalların, yataq dəstlərinin yuyulub-ütülənməsi üçün müasir aparatlar quraşdırılıb. "Yaradılan bu cür şərait bizim işimizi olduqca asanlaşdırır və qısa bir müddət ərzində qarşıya qoyulan tapşırığın öhdəsindən layiqincə gəlməyə imkan verir. Təmiz paltarların və yataq ləvazimatlarının vaxtında yuyulub-ütülənməsi əsgərin xidməti üçün vacibdir. Biz də işimizə böyük sevgi ilə yanaşırıq. Hər bir hərbi qulluqçunu özümə övlad bilirik. Onlar bizə illərdir həsrətində olduğumuz qələbə sevincini yaşatdılar. Xoşbəxtəm ki, mənim belə mərd, cəsur və güclü oğullarım var. Hər biri ilə qürur duyuram".

Müəssisənin əməkdaşları Cənnət Rzaxanova və Qərənfil Quliyeva üzərlərinə düşən işin öhdəsindən layiqincə gələrək, əsgərlərimizi təmiz və ütülənmiş yataq dəstləri, səliqəli geyimlə təmin edilməsində səylə çalışırlar. "Bu gün ordu sıralarında xidmət edənlərin sayəsində ölkəmizin ərazi bütövlüyü bərpa edilib. Bir zamanlar torpaqlarımızı namərdcəsinə işğal edən düşmən mərd, cəsur Azərbaycan əsgərinin qarşısından geri çəkilməyə məcbur oldu. Biz də qalib ordumuzun yanında olmalıyıq. Əsgərlərimizə layiqli qulluq etməyi özümüzə mənəvi borc bilirik. Buna görə də əlimizdən gələni edirik və hər zaman da edəcəyik".

Hərbi hissənin camaşırxanasında gördüklərimiz bir daha sübut etdi ki, əsgərlərimizin sosial təminatı yüksək səviyyədədir. Camaşırxanada çalışan qadın operatorlar əsgərlərimizə doğma münasibət göstərir, onları ana qayğısı ilə əhatə edirlər. Hərbi qulluqçulara yüksək diqqət və qayğı göstərilir. Şəxsi heyətin məişət şəraitinin ən yüksək səviyyəyə çatdırılması istiqamətində daim işlər aparılır. Bütün bunlar isə hərbçilərin mənəvi-psixoloji hazırlıqlarının və döyüş ruhunun yüksəldilməsinə köməklik edir.

**Kapitan**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

# Ermənistan ordusunun döyüşdə məhv edilən yüksək rütbəli zabitinin meyiti tapılıb

Müharibənin bitməsinə baxmayaraq hələ də döyüş əməliyyatları zamanı şanlı ordumuz tərəfindən məhv edilmiş erməni hərbçilərinin meyitlərinin axtarışı davam edir. Döyüşlərdə ölənlərin və itkin düşənlərin sayı gizlədilsə də, Azərbaycan tərəfinin humanistlik göstərərək işğaldan azad edilmiş ərazilərdə axtarışlar üçün yaratdığı şərait nəticəsində məhv edilmiş hərbçilərin meyitləri aşkar edildikdə Ermənistan müdafiə nazirliyi bu barədə məlumat vermək məcburiyyətində qalır.

Bu günlərdə adı gizlədilən daha bir yüksək rütbəli Ermənistan ordusunun zabitinin meyiti aşkarlanıb. Həmin zabitin kimliyi təyin edildikdən sonra dəfn olunub. Məlum olub ki, dəfn olunan yüksək rütbəli zabit Ermənistan silahlı qüvvələrinin snayperlər məktəbinin rəisi olmuş polkovnik-leytenant Artur Akopyandır. Erməni zabiti öz dəstəsi ilə 2020-ci il oktyabrın 10-da Qubadlı-Cəbrayıl istiqamətində gedən döyüşlər zamanı Azərbaycan Ordusunun döyüşçüləri tərəfindən məhv edilmişdi və bu günə qədər də 5 aydan çox idi ki, itkin düşənlərin siyahısında idi.

Döyüşdə ölən erməni hərbçilərin axtarışları davam edir və görünən odur ki, Ermənistan müdafiə nazirliyi sayını hələ də gizlətməkdə davam edir. Diqqət çəkən odur ki, döyüşlər zamanı məhv edilən Qarabağdan olan ermənilərin adları heç bir rəsmi siyahıya daxil edilməyib.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

## *Hərbi texnikalar, silahlar*

# ANKA pilotsuz uçuş aparatı




Türkiyənin TUSAŞ şirkəti tərəfindən hazırlanan ANKA pilotsuz uçuş aparatı orta yüksəklikdə kəşfiyyat apara bilən və bütün tələblərə cavab verən ilk uçuş vasitəsidir. Uçuş aparatının hazırlanmasında ASELSAN şirkəti də iştirak edib. ANKA pilotsuz uçuş aparatları 2013-cü ildə istifadəyə verilib. ANKA 9144 metr hündürlüyə qədər qalxa bilir. Aparat infraqırmızı görüntüləmə və lazer sistemi ilə təchiz edilib. Onun maksimal sürəti saatda 217 kilometrdir və tam yüklənmiş vəziyyətdə 24-32 saat ərzində havada qalmağa qadirdir. 1500 kiloqram çəkisi olan ANKA pilotsuz uçuş aparatı dörd silindrli, 155 at gücündə "Rhielert Centurion 2,0" turbomühərriki ilə təchiz edilib.

Digər pilotsuz uçuş aparatı peykdən idarə olunan ANKA-S pilotsuz uçuş aparatıdır. 2013-cü ilin oktyabrın 25-də müqavilə əsasında on ədəd seriyalarla Silahlı Qüvvələr üçün hazırlanıb. Başqalarından fərqli olaraq bu uçuş aparatı istənilən nöqtədən, müxtəlif hava şəraitində digər pilotsuz uçuş aparatlarına nəzarət edə bilir. 24 saat ərzində 9144 metr hündürlükdə kəşfiyyat aparan ANKA-S ASELSAN CATS elektro-optik sistemindən istifadə etməklə, alınan görüntüləri yüksək dəqiqliklə nəzarət məntəqəsinə ötürür.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə daha bir hərbi təyinatlı istehsal müəssisəsinin açılışı olub




Dünyada hərbi məhsulların texnologiyaları sürətlə dəyişir. Artıq təyyarə bombalarımız, döyüş sursatlarımız, raketlərimiz və döyüş başlıqları, partlayıcı maddələrə görə heç kimdən asılı olmayacağıq.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu fikirləri MKEK (Makina və Kimya Sənayesi İstehsalat Birliyi) Barıtsan Raket və Partlayıcı Fabrikində qurulan Energetika məhsulları İstehsalat Mərkəzinin açılış mərasimindəki çıxışında ifadə edib.

Son illər Türkiyədə istehsal sahəsində böyük uğurlar qazanıldığını diqqətə çatdıran dövlət başçısı əminliklə bildirib ki, açılışı keçirilən bu təsis sayəsində Türkiyə yeni nəsil partlayıcı maddələr istehsal etmə qabiliyyəti ilə super liqaya çatacaq. Xaricdən gətirilən modul barıt sistemi bundan sonra artıq tamamilə yerli vasitələrlə istehsal ediləcəkdir.

## Pakistanda baş verən partlayış nəticəsində 1 nəfər ölüb, 5 nəfər yaralanıb



Pakistanın Bəlucistan əyalətinin Kila Abdulla dairəsinin Çaman şəhərində baş verən partlayış nəticəsində 1 nəfər ölüb, 5 nəfər yaralanıb. Bomba təhlükəsizlik qüvvələrinin keçdiyi yolda quraşdırılıb.

Partlayış ölkənin Baş naziri İmran Xanın bu regiondakı Ketta şəhərinə birgünlük səfəri zamanı baş verib.

Partlayışa görə məsuliyyəti hələ ki, regionda fəaliyyət göstərən heç bir qruplaşma öz üzərinə götürməyib.

## ABŞ və İngiltərə hərbçilərinin iştirakı ilə Estoniyada genişmiqyaslı təlimlər keçiriləcək



May ayında Estoniyada təşkil olunacaq "Swift Response" beynəlxalq hərbi təlimləri çərçivəsində ABŞ və İngiltərə hərbçilərinin iştirakı ilə xüsusi təyinatlı qüvvələrin genişmiqyaslı təlimləri keçiriləcək.

Təlimlərdə ABŞ və İngiltərədən təxminən 1000, Estoniyadan isə 250 hərbçi iştirak edəcək. Təlimlərə bu ölkələrin aviasiya vasitələri də cəlb olunacaq.

Qeyd edilib ki, Estoniya müdafiə qüvvələrinin bölmələri Nurmsda keçiriləcək əməliyyatlara mayın 6-da qoşulacaqlar.

## Qırğızıstan-Tacikistan sərhədindəki qarşıdurmada hər iki tərəfdən həlak olanların sayı 16-ya çatıb



Qırğızıstan-Tacikistan sərhədindəki qarşıdurmada qırğız tərəfdən həlak olanların sayı 13-ə çatıb. Tacikistan tərəfdən 3 adamın öldüyü bildirilir.

Aprelin 30-u yerli vaxtla saat 8:00-a olan məlumata görə qırğız tərəfdən 134 adam yaralanıb. Onların bir çoxunun vəziyyəti ağırdır. 25 ağır yaralı xüsusi təyyarə ilə Batkendən Bişkekə aparılıb.

Ötən gecə Qırğızstanla Tacikistan arasında qarşıdurmanın tənzimlənməsi üçün bəyannamə və protokol imzalanıb.

Xatırladaq ki, qarşıdurma aprelin 28-də Qırğızıstanın Batken rayonunun Kok-Taş kəndinin ərazisinə Tacikistan tərəfinin suya nəzarət etmək üçün dirəklərə videokameralar quraşdırmasından sonra başlanıb.

**AZƏRTAC-ın**
**materialları əsasında**

*Məişət*

# Əsgərlərimizin sosial-məişət şəraiti yüksəkdir



***Ulu Öndərimizin siyasi kursunun layiqli davamçısı Müzəffər Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı nəticəsində hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması, işğaldan azad edilən ərazilərdə, çöl və stasionar şəraitdə yerləşən hərbi hissələrin maddi-texniki təminatının gücləndirilməsi və müasir avadanlıqlarla təchiz edilməsi istiqamətində fəaliyyətlər uğurla davam etdirilir.***

"N" hərbi hissəsində şəxsi heyətin sosial-məişət şəraiti ilə yaxından tanış olduq. Hərbi hissə müasir qurğu və avadanlıqlarla təchiz edilib. Əsgərlərimizin nümunəvi xidmət etmələri üçün mümkün olan bütün şərait yaradılıb. Ərazi ilə tanış olduqdan sonra əsgər yataqxanasına daxil olduq. Yaradılan şərait, səliqə-sahman könül oxşayırdı. Yataqların düzgün yığılması, dolablardakı təmizlik burada nizam-intizamın yüksək səviyyədə olmasından xəbər verirdi.

Əsgər Rüfət Quluyev söhbət zamanı bildirdi ki, qalib ordunun sıralarında xidmət etmək qürurvericidir. "Xidmət etdiyim müddət ərzində hər zaman arzu edirdim ki, Vətənimizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərə qatılım. Torpaqlarımızı yağı düşməndən azad edənlərin sırasında olum. Xalqımızın qanına və canına susayan erməni vandallarından qisasımızı alaq. Arzum gerçəkləşdi və Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında başlayan Vətən müharibəsinin iştirakçısı oldum. Döyüşlərin ilk günündən etibarən yurdumuzu zəbt edən düşməni torpaqlarımızdan qovduq, hər qarışını azad etdik".

"Komandanlıq tərəfindən yaradılan məişət şəraitimiz olduqca yüksək səviyyədədir", - deyə əsgər sözünə davam etdi. - Hər həftə camaşırlarımız yeniləri ilə əvəz edilir. Çirkli paltar və yataq dəstlərimiz yüksək texnoloji avadanlıqlarla təchiz olunan camaşırxanada yuyulub ütüləndikdən sonra bizə təhvil verilir. Peşəkar komandirlərimiz sayəsində heç bir çətinliyimiz olmur. Əlbəttə, hər birimizə göstərilən diqqət və qayğının qarşılığında xidmətimizi düzgün təşkil etməliyik.



Tovuz döyüşlərinin və Vətən müharibəsinin iştirakçısı olan əsgər Zaid Zaidov bildirdi ki, şəxsi heyət üçün yaradılan şərait qarşısında xidmətimizə məsuliyyətlə yanaşmalı, verilən bütün əmr və tapşırıqları vaxtlı-vaxtında yerinə yetirməliyik. "Yuxarı komandanlığın diqqət və qayğısı nəticəsində sosial-məişət şəraitimiz yüksək səviyyədədir. Gördüyünüz kimi, əsgər yataqxanamız necə gözəl və səliqəlidir. Biz də əlimizdən gələni edirik ki, bu səliqə-sahmanı qoruyub saxlayaq. Burada yaradılan məişət şəraiti hər birimizdə ruh yüksəkliyi yaradır. Bizim öhdəmizə düşən tək vəzifə isə Vətənə layiqli əsgər olmaqdır".

Əsgər yataqxanasından sonra bərbərxanaya daxil olduq. Silahdaşının saçını səliqəyə salan əsgər Şamxal Rüstəmovla tanış olduq. Cəsur döyüşçümüz Tovuz və İkinci Qarabağ müharibəsinin iştirakçısıdır. Kəlbəcər rayonu istiqamətində gedən ağır döyüşlər zamanı Şamxal xain düşmənin artilleriya zərbəsi nəticəsində qəlpə yarası alıb. O bildirdi ki, bərbər sənətinə uşaqlıqdan marağı olub. "Orta məktəbdə dərslərimi bitirdikdən sonra peşəkar usta yanına gedib bu sənətin sirlərini öyrənirdim. İndi isə öyrəndiklərimdən bacarıqla istifadə edirəm. Sevinirəm ki, hansısa bir bacarığımla əsgər yoldaşlarıma köməklik göstərirəm. Həftənin sonunda sıra baxışına hazırlaşarkən əsgər yoldaşlarımın saçını səliqəyə salıram".

"Digər əsgər yoldaşlarıma qoşularaq demək istəyirəm ki, burada bizim üçün hər cür şərait yaradılıb. Bu şəraitdən istifadə edərək, şəxsi gigiyena qaydalarına riayət edir, səliqəli və təmiz oluruq", - deyə əsgər Ayxan Əliyev bildirdi.

Mərd əsgərlərimiz üçün yaradılan şəraitlə tanış olduğumuz zaman bir daha əmin olduq ki, onların xidmətlərinin düzgün təşkil edilməsi üçün hərtərəfli şərait yaradılıb. Döyüşçülərimiz də bunun qarşılığında xidmətini düzgün təşkil edir, verilən tapşırıqları vaxtlı-vaxtında icra edirlər.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

*Könlüm şeir istəyir*

# Şeir duyumun söz təsdiqidi



***Etibar Həsənzadə Daşkəsən şəhərindəki Anar Mürsəlov adına 2 saylı orta məktəbin məzunudur. Bakı Slavyan Universitetinin Yaradıcılıq fakültəsini bitirib. Poeziyaya maraq onda nə vaxt, hansı yaşında yaranıb, bilinməz. Bilinən budur ki, duyumunun kövrəkliyi onun düşüncələrini şeirləşdirirmiş. İstedad heç bir mənə tanımır; müxtəlif illərdə nəşr olunmuş "Könlümlə söhbət", "Duyğular dinsin", "Gecikmiş etiraf", "Bir həyat romanı", "Sevgi bəstəsi", "Mən şəhid olacam, ana", "Eşqin heykəli" kitabları Etibar Həsənzadənin istedadının təsdiqidir.***

***"Xəlil Rza Ulutürk", "Qızıl Kitab" və başqa mükafatlar laureatı Etibar Həsənzadənin üç şeirini təqdim edirik.***

**"Azərbaycan Ordusu"**

***Etibar Həsənzadə***

### Xudayarın səsi

Bu necə avazdır, bu necə səsdir,
Mənə bir bu qədər kövrək göründü.
Beş addım o yanda ağacların da,
Xırda budaqları titrək göründü.

Bərdə torpağının qəhrəman oğlu,
Xatirəyə döndü o gözəl səsin.
Yandırdın qəlbləri bir təsnif ilə,
Olubsan əzizi hər duyan kəsin.

Füzuli... Kəlbəcər... Cəbrayıl...
Sən də
Döyüş əmri verdin arzularına
Zəngilan uğrunda yaralananda,
Yellər sarğı oldu yaralarına.

Murovdan Ağbəndə döyüş yolunda
Bir dastan yazmısan qeyrətlə, qardaş.
O vaxtdan bu yana təəssüf ilə
Səni xatırlayır hər qaya, hər daş.

Duyan ürəklərdə heykəlləşibsən,
Adına şeirlər yazılır bu gün,
Daim yaşadacaq xalqımız səni,
Xalqın qəhrəmanı olduğun üçün.

Hər ana ürəyi o gündən bəri,
Qəhərdən alışan oddur, ocaqdır.
Hər dan söküləndə min illər ilə
"Xudayar təsnifi" oxunacaqdır...

### Gəldik, Qarabağımız

Yolun-izin bağlı idi,
Gəldik, Qarabağımız.
Ürəyimiz dağlı idi,
Gəldik, Qarabağımız.

Yovşanı gör, yulğunu gör,
Dilə gələn duyğunu gör,
Şəhidlərin ruhunu gör,
Gəldik, Qarabağımız.

Yadı dağ-dağ eləmişik,
Sözü çıraq eləmişik.
Səni bayraq eləmişik,
Gəldik, Qarabağımız.

### Bayrağım

Bayraq Vətənimin təmsilçisidir,
Doğma Vətənimin gur səsidir o.
Bayraq məhəbbətim, ülviyyətimdir,
Bütün sevgilərin zirvəsidir o.

Bayraqlar ucaldı Qarabağımda,
Vətənsevərliyin timsalı kimi.
Azərbaycanımız - qüdrətli dövlət,
Qardaşlıq doğradı kədəri, qəmi.

Bayraq bu zəfərin carçısı olub,
Köksüm ürəyimə darlıq eləyir.
İndi uca göylər bayraq diliylə
Bayraqsevərlərə salam söyləyir.

Qanı üstündədir şəhidlərimin,
Qanlı döyüşlərdə zəfər rəmzidir.
Oğullar gətirir səhərləri də,
Dünyaya ən nurlu səhər rəmzidir.

Sənin torpağına xor baxanlara
Sən qənim olubsan, qənim, bayrağım.
Səni yaşadarıq! Hər birimizin
Qürur ünvanısan, mənim bayrağım.

Tibb xidməti leytenantı Məmmədov Əşrəf Fəxrəddin oğluna 2019-cu ildə verilmiş MN № 0056739 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Abdullayev Vüqar Ağasəlim oğluna 2003-cü ildə verilmiş AD № 0001218 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Baş redaktor vəzifəsini icra edən kapitan Məhəmməd NƏSİRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
Lalə HÜSEYNOVA

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 265
Nüsxə 4050